**Gəncədə 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Mirhüseyn Miryunis oğlu Seyidzadənin adına küçənin və barelyefin açılış mərasimi keçirilib. Tədbirdə Gəncə şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, millət vəkilləri Pərvin Kərimzadə, Müşfiq Cəfərov, YAP Gəncə təşkilatının sədri Ramil Orucov, Nizami Bələdiyyəsinin sədri Qoşqar Məmmədov, Gəncə şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Ayxan Babayev, şəhidin ailəsi, şəhid ailələri, qazilər, hərbçi yoldaşları, Seyidzadə Mirhüseynin oxuduğu məktəbin müəllim və şagird kollektivi, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.**




**GƏNCƏ**

# ŞƏHİDİN ADINI DAŞIYAN KÜÇƏNİN VƏ BARELYEFİN AÇILIŞI



Mərasim iştirakçıları torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra şəhidin barelyefi üzərindən örpək götürülüb. Önünə tər gül dəstələri düzərək böyük ehtiramla yad ediblər. Çıxış edənlər bildiriblər ki, 44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunun gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. Vətən uğrunda canını fəda edən şəhidlərimiz Azərbaycanın qəhrəmanlıq salnaməsini yazan, qəlbimizdə əbədi yaşayan igid Vətən övladlarıdırlar. Azərbaycan gənclərinin döyüşkənliyi və mərdliyi, ölümün gözünə dik baxaraq torpaqların azad edilməsi uğrunda canlarından belə keçməyə hazır olduqlarını bir daha sübut etdilər.

Qeyd olundu ki, şəhid Mirhüseyn Seyidzadə Vətənə bağlılığı və vətənpərvərliyi ilə həmişə seçilib. Həqiqi hərbi xidməti başa vurduqdan sonra torpaqların azad olunması istəyi onu "N" saylı hərbi hissədə müddətdən artıq hərbi xidmət edən əsgər kimi çalışmağa yönəltdi. Ailədə tək oğul olsa da, valideynləri ilə söhbət edəndə həmişə işğalçı ermənilərə qarşı intiqam hisslərinin olduğunu bildirərdi. Şəhid Mirhüseyn bir gün işğalda olan Qarabağ torpaqlarımızın azad ediləcəyini, bu şərəfli yolda onun da bir əməyi olacağını söyləyirdi. 2019-cu il sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin torpaqlarımızın azad olunması üçün səfərbər olunmaq barədə əmri gələndə bir hərbçi kimi Mirhüseyn Seyidzadə də ürəklə döyüşlərə atılıb, həmişə ön cərgələrdə olub. Cəsur əsgər Mirhüseyn Seyidzadə Vətən müharibəsində Laçın, Füzuli və Cəbrayıl uğrunda gedən döyüşlərdə misilsiz şücaətlər göstərib. Qəhrəman şəhid 44 günlük Vətən müharibəsi dövründə yoldaşları ilə birgə 14 gün müddətində düşmənə ağır zərbələr endirib. Böyük xidmətləri olan Mirhüseyn Seyidzadə oktyabrın 9-da Cəbrayıl rayonu uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla Mirhüseyn Seyidzadə "İkinci dərəcəli Vətənə xidmətə görə", 3-cü dərəcəli "Rəşadət" ordenləri və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin atası Miryunis Seyidzadə torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xalqımızın yaddaşından heç zaman silinməyəcəyini vurğulayaraq, "Mən bir şəhid atası kimi oğlumla qürur duyuram. Mirhüseyn bütün şəhid balalar kimi əsl vətənpərvər olduğunu döyüşlərdə göstərdi. Torpaqlarımızı düşmənlərdən qanları bahasına azad etdilər. Bu gün çox qürurluyam ki, oğlumun ad günündə onun adına olan küçənin açılışında hamı böyük hörmət və məhəbbətlə iştirak edir. Mən bilirəm ki, xalqımız vətən uğrunda canından keçən şəhidləri heç zaman unutmayacaq" söylədi. Şəhidin valideynləri göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər. Mərasimdə, həmçinin məktəblilər Vətənə, qəhrəmanlara həsr olunan şeirlər səsləndiriblər.

Tədbir iştirakçıları şəhid Seyidzadə Mirhüseyn Miryunis oğlunun məzarını ziyarət edərək, önünə tər güllər düzüb, xatirəsini dərin ehtiramla anıblar. Qeyd edək ki, Gəncə şəhər Əttarlar küçəsinin, Nizami Gəncəvi prospekti ilə kəsişməsindən, Eldəniz Həsənov küçəsi ilə kəsişməsinədək olan hissəsi bu küçədə yaşamış şəhid Mirhüseyn Seyidzadənin adını daşıyır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**



# TORPAĞI VƏTƏN, VƏTƏNI BÜTÖV EDƏNLƏR